# HAFIZ ŞƏKƏROV - 60



Respublikanın tanınmış geofiziki Hafiz Şəkərov 1960-cı ildə Azərbaycanın dilbər guşələrindən birində - Gədəbəy rayonunda anadan olmuşdur. 1977-ci ildə Bakıda orta məktəbi bitirmiş və fəhlə kimi əmək fəaliyyətinə başlamışdır. 1978-ci ildə istehsalatdan ayrılmadan Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinə daxil olmuş və 1986-cı ildə oranı fizik ixtisası üzrə bitirmişdir.

1983 - 2008-ci illərdə Geofizika ETİ-də mühəndis, elmi işçi, laboratoriya müdiri, elmi işlər üzrə direktor müavini vəzifələrində işləmişdir. H.İ.Şəkərovun bilavasitə iştirakı ilə yeni hazırlanmış cihazlar sınaqdan çıxarılmış və istehsalatda müvəffəqiyyətlə tətbiq edilmişdir. Bununla yanaşı, seysmik kəşfiyyatla neft-qaz yataqlarının birbaşa axtarışı üsulunun fiziki və nəzəri əsaslarının işlənib-hazırlanmasında H.İ.Şəkərovun böyük rolu olmuşdur. Onun bilavasitə iştirakı ilə Respublikanın bir sıra mürəkkəb seysmogeoloji şəraitə malik sahələrində, Xəzər dənizinin dayaz sulu hissələrində, "quru-dəniz" keçid zonalarında kompleks geofiziki üsullarla tədqiqatlar aparılmış və müsbət nəticələr alınmışdır.

H.İ.Şəkərov 2001-ci ildə "Azərbaycanın müxtəlif seysmogeoloji şəraitində seysmik kəşfiyyatın sınan və əks olunan dalğa üsulları ilə neft-qaz yataqlarının proqnozlaşdırılması" mövzusunda dissertasiya müdafiə etmiş və geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

H.İ.Şəkərov 2003-cü ildə "Geodinamik gərginliklə əlaqədar kəsilişlərin neft-qazlılığının öyrənilməsi" laboratoriyasına müdir təyin olunmuşdur. O, burada QGT materiallarının emal və interpretasiyası, geodinamik proseslərin təsirindən geofiziki və geokimyəvi sahələrin dəyişməsi və onların geofiziki tədqiqat işlərinə təsiri, quyu kəsilişlərinin məhsuldarlığının qiymətləndirilməsi, layların süzülmə-tutum xüsusiyyətlərinin dəyişmə meyarlarının təyinində yeni istiqamətlərin müəyyənləşdirilməsi, böyük dərinliklərin neft-qazlılığı kimi mühüm əhəmiyyət kəsb edən problemlərin həlli ilə məşğul olmuşdur. H.İ.Şəkərov tərəfindən QGT materiallarının emal və interpretasiya işləri daha da təkmilləşdirilmiş, kiçik qalınlıqlı qumlu-gilli təbəqələrin növbələşməsindən ibarət, az müqavimətli lay dəstələrinin məhsuldarlığının qiymətləndirilməsi üçün yeni metodik yanaşmalar işlənib-hazırlanmış və tətbiq olunmuşdur. Eyni zamanda, Abşeron yarımadasında istismarda olan yataqlarda fəaliyyəti dayandırılmış quyular üzrə kompleks QGT və İNNK materiallarının qarşılıqlı təhlili aparılmış, kəsilişdə neftli-qazlı layların olması proqnozlaşdırılan quyuların istismar fonduna qaytarılması üçün müvafiq NQÇİ-lərə tövsiyələr verilmişdir. Sonradan aparılmış perforasiya-sınaq işləri verilmiş proqnozları təsdiq etmişdir.

2006-cı ildə o, Geofizika ETİ-nin elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin edilmişdir. Bu vəzifədə işlədiyi müddət ərzində elmi-tematik mövzuların formalaşdırılmasında, onların yerinə yetirilməsində, İnstitutun beynəlxalq əlaqələrinin genişləndirilməsində H.İ.Şəkərovun böyük rolu olmuşdur. 2008-ci ildə H.İ.Şəkərov Geofizika və Geologiya İdarəsində "Kompleks kəşfiyyat geofizikası" şöbəsinin rəisi vəzifəsinə təyin olunmuşdur. Hazırda SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunda "Geofizika Departamenti"nin rəisi vəzifəsində işləyir.

H.İ.Şəkərovun apardığı geniş şaxəli elmi-tədqiqat işlərinin nəticələri 30-dan çox elmi-tədqiqat hesabatında, 60-a yaxın məqalədə və bir patentdə öz əksini tapmışdır. H.İ.Şəkərov eyni zamanda, BDU-nun "Seysmologiya və Yer təkinin fizikası" kafedrasında pedaqoji fəaliyyət göstərir. O, Azərbaycan Milli Geofizika Komitəsinin, Azərbaycan Neftçi Geoloqlar Cəmiyyətinin fəal üzvlərindən biridir.

Həmkarları və çalışdığı kollektiv arasında böyük hörmətə malik olan Hafiz müəllimə möhkəm can sağlığı, uzun və şərəfli ömür, Azərbaycan geofizikasının inkişafı istiqamətində apardığı işlərdə uğurlar arzulayırıq!